

**Qadınlar böyük qüvvədir. Tarixə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, qadınlar illər boyu öz hüquqlarının qorunması üçün əzmlə mübarizə aparmış, haqsızlığa dözməmiş, istəmişlər ki, əmək şəraitləri maksimum səviyyəyə yüksəlsin, dünyada sülh, əmin-amanlıq olsun.**

# Anaların çöhrəsindən sevinc əskik olmasın...

Hər il 8 Mart tarixində qadınların iqtisadi, ictimai və siyasi mübarizələrindən söhbət açılır, onlara sonsuz hörmət və məhəbbət göstərilir.

Qadınların kişilərlə bərabərhüquqlu olmaq uğrunda apardığı mübarizə 8 mart 1857-ci ildə ABŞ-ın Nyu-York şəhərində geyim sektorunda çalışan yüzlərlə qadının aşağı maaşa, uzun çalışma saatlarına, eyni zamanda pis iş şəraitinə etiraz olaraq tətil etməsilə başlandı. Lakin polis aksiyanın uzun sürməsinə izin verməyərək nümayişi dağıtdı.

İlk Qadınlar Günü mərasimi 1909-cu ilin 28 fevralında Nyu-Yorkda baş tutmuşdur, bu Amerika Sosialist Partiyası tərəfindən Beynəlxalq Qadın Tikiş İşçiləri Birliyinin 1908-ci ilki tətilinin yada salınması münasibətilə təşkil olunmuşdu.

Bəzi tarixçilərin fikrincə, 8 Martın təqvimə qırmızı rəqəmlərlə düşməsinin səbəblərini bilmək üçün 1910-cu ildə həmin günün bayram kimi qəbul olunması təşəbbüsünü irəli sürmüş Klara Setkinin şəxsiyyətinə, xüsusən onun milli mənsubiyyətinə nəzər salmaq kifayətdir.

1911-ci ildə Kopenhagen qərarından sonra ilk dəfə olaraq 19 martda Avstriya, Danimarka, Almaniya və İsveçrədə bu bayram qeyd edilmişdir.

1975-ci il dünya qadınları üçün xüsusi əhəmiyyət daşıyır. Məhz həmin il Beynəlxalq Qadınlar İli olaraq tarixə düşdü. Həmin ilin beynəlxalq qadın ili elan edilməsindən sonra BMT-də 1975-ci ilin 8 martı ilk dəfə Beynəlxalq Qadınlar Günü olaraq keçirildi. İki il sonra 1977-ci ildə isə nəhayət, Birləşmiş Millətlər Təşkilatının Ümumi Qurultayında 8 Mart Qadın Hüquqları və Beynəlxalq Sülh Günü olaraq qəbul edildi.

Azərbaycanda elə bir sahə olmaz ki, orada qadınların fəallığı, mübarizliyi nəzərə çarpmasın. Sovetlər İttifaqı dönəmində Azərbaycan qadınları fabrik, zavod, çay plantasiyaları, pambıq tarlaları və digər sahələrdə fərəhli nəticələr qazanmış, elm, mədəniyyət və təhsilin inkişafında ikiqat səylə çalışmışlar. Təkcə onu qeyd etmək kifayətdir ki, İkinci Dünya müharibəsində qadınlarımız cəbhədə düşmənə qarşı aparılan ölüm-dirim savaşının önündə getmiş, bir çox Azərbaycan qadınları müharibədən orden və medallar qazanmışlar.

Sovet hakimiyyəti illərində Azərbaycan qadınları yüksək mükafatlara



layiq görülmüş, SSRİ və Azərbaycan Ali sovetlərinin deputatı seçilmiş, ölkəmizin adına şan-şöhrət gətirmişlər.

1993-cü ildə xalqın təkidli tələbi ilə ulu öndərimiz hakimiyyətə gəldikdən sonra qadınlarımız mübariz qüvvəyə çevrilmiş, onların həyat tərzinin yaxşılaşdırılmasına maksimum səy göstərilmiş, ictimai həyatın bütün sahələrində onların avanqard rolu təmin edilmişdir.

1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunmuşdur. Ölkəmiz BMT-nin qadın məsələləri üzrə komissiyasının tamhüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulmuşdur.

Qürurla qeyd etmək lazımdır ki, Azərbaycan qadınları cəmiyyətin aparıcı qüvvəsinə çevrilmişlər. Milli əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz, dilimizin saflığı məhz qadınların müdrikliyi sayəsində çətin və mürəkkəb dövrlərin sınağından çıxa bilmişdir. Elm, mədəniyyət və digər sahələrdə qazandığı uğurlar Azərbaycan qadınının mədəni və intellektual potensialından xəbər verir.

Prezident cənab İlham Əliyev tərəfindən dövlət qadın siyasəti qətiyyətlə davam etdirilir. Azərbaycan qadınlarının cəmiyyətdə yeri və nüfuzu daha da artıb. Ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verirlər.

Qoy bütün anaların çöhrəsindən sevinc əskik olmasın!

**Esmira ƏLƏSGƏROVA,**
**Göygöl rayonu, Quşqara kənd orta məktəbinin müəllimi.**